# MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİMİZİN MEMARI

**Lamiyə Kərimova**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,*
*Azərbaycan, Bakı "Humanitar fənlər" kafedrası*
*lamiyosmanova@gmail.com*

## THE ARCHITECT OF OUR NATIONAL SPIRITUALITIES

**Lamiya Karimova**

**Summary**

Literature is a great force in proving and showing the truths of life. The main task of literature, which is the vitality of the people's consciousness and its national-spiritual life, is to transform events into ideas, to have a great impact on feelings and ideas. The great leader approached literature from the point of view of state interests. Azerbaijani language, literature, cultural and moral values are the main sources, artistic and philosophical sources of the Azerbaijani philosophy of the national leader, the national and state ideology of independent Azerbaijan. Heydar Aliyev's nationalism policy in literature included issues such as nationalism, patriotism, deep respect for traditions, expansion of the position of the mother tongue, and so on.

As in all spheres of public life, achievements in the field of literature and culture, state attention and care for outstanding intellectuals are connected with the name of National leader Heydar Aliyev. appreciates. It is an undeniable fact that he is a rare personality for the entire Turkic world and the Muslim world.

**Keywords:** genius, leader, literature, culture, national-moral values

## MİLLİ MƏNƏVİDƏYƏRLƏRİMİZİN MEMARI

**Lamiyə Kərimova**

**Xülasə**

Ədəbiyyat həyat həqiqiətlərini sübut etməkdə, onu göstərməkdə böyük qüvvədir.Xalqın şüurunun,onun milli-mənəvi həyatının diriliyi olan ədəbiyyatın əsas vəzifəsi hadisələri ideyalara çevirmək, hisslərə və fikirlərə böyük təsir qüvvəsinə malik olmaqdır. Ulu öndər ədəbiyyata dövlətçilik mənafeləri baxımından yanaşırdı. Azərbaycan dili, ədəbiyyatı, mədəni-mənəvi dəyərləri ümummilli liderin azərbaycançılıq fəlsəfə-sinin, müstəqil Azərbaycanın milli və dövlət ideologiyasının əsas məxəzləri, bədii-fəlsəfi mənbələridir. Heydər Əliyevin ədəbiyyatda apardığı millilik siyasəti özündə xəlqilik, vətənpərvərlik, adət-ənənələrə dərin ehtiram, ana dilinin mövqeyinin genişləndirilməsi və sair kimi məsələləri əhatə etmişdir.

İctimai həyatın bütün sahələrində olduğu kimi ədəbiyyat və mədəniyyət sahəsində qazanılan nailiyyətlər, görkəmli ziyalılara dövlət diqqət və qayğısı məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımız tarixin bizə bəxş etdiyi bu bəsirətli şəxsiyyətin ucalığını, onun dahiliyini və bənzərsizliyini, gördüyü nəhəng işlərin Azərbaycan üçün əhəmiyyətini həmişə yüksək dəyərləndirir. Onun bütöv türk dünyası, müsəlman aləmi üçün nadir şəxsiyyət olması danılmaz həqiqətdir.

**Açar sözlər:**dahi şəxsiyyət, lider,ədəbiyyat,mədəniyyət,milli-mənəvi dəyərlər

## АРХИТЕКТОР НАШЕЙ НАЦИОНАЛЬНОЙ ДУХОВНОСТИ

**Ламия Каримова**

**Аннотация**

**Giriş.** Dünya tarixindən məlumdur ki, hər bir xalqın taleyinə təsir edən, iz qoyan ali şəxsiyyətlər olmuşdur.Lakin bəşər tarixində hər hansı bir fərdin öz dövlətinin, millətinin talismanına çevrilməsi, həyatını öz millətinin taleyi ilə bağlaması nadir hadisələrdəndir.Azərbaycan xalqı xoşbəxtdir ki, onun tarixində belə şəxsiyyət olmuşdur. Belə şəxsiyyətlərdən biri həyat amalı xalqına, dövlətinə, ölkəsinə xidmət olan Ümummilli lider Heydər Əliyevdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının tarixində öz imzasını qoyan, qaranlıqdan işığa nur saçan, öz iradəsi, qətiyyətli mövqeyi ilə mənsub olduğu xalqı arxasınca aparmağı bacaran,

xalqın tarixinin ən taleyüklü məqamlarında qalib olub ona zəfər yaşadan, çiyinlərində böyük bir ölkənin yükünü şərəflə daşımağı bacaran dahi şəxsiyyətdir. Onun ömrünü nəhəng bir insan ömrünün qızıl salnaməsi kimi qiymətləndirmək olar. O, başqalarından fərqli olaraq uzağı görə bilmək, vəziyyəti məqamında dəyərləndirmək, ən çətin anlarda belə düzgün qərar verə bilmək qabiliyyətlərinə görə digərlərindən seçilirdi.

Nadir dövlətçilik və liderlik keyfiyyətinə, qeyri-adi unikal yaddaşa, fitri istedada, yüksək vətənpərvərlik hissinə malik olan Ulu öndər Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı təcəssüm etdirən, müstəqil Azərbaycanın siyasi, iqtisadi, hüquqi, sosial-mədəni əsaslarını yaradan və inkişafını təmin edən qüdrətli şəxsiyyətdir.Bu qüdrətli şəxsiyyət eyni zamanda ən böyük ədəbiyyat himayədarıdır.

Çağdaş dünyanın tarixində öz xalqı, onun həyatı, mədəniyyəti, ədəbiyyatı, mənəviyyatı ilə möhkəm bağlanan, öz şəxsiyyəti ilə xalqının simvoluna çevrilən liderlərdən biri ən yeni Azərbaycan tarixində öz tarixini yazan Heydər Əliyevdir.

**Əsas hissə.** Ədəbiyyat həyat həqiqətlərini sübut etməkdə, onu göstərməkdə böyük qüvvədir. Xalqın şüurunun, onun mənəvi həyatının diriliyi olan ədəbiyyatın əsas vəzifəsi hadisələri ideyalara çevirmək, hisslərə və fikirlərə böyük təsir qüvvəsinə malik olmaqdır.

XVI əsrin dühalarından olan M.Füzuli deyirdi ki, sözdən elə bir süfrə açmışam ki, hər gələn qonağa mütləq orada bir nemət tapılar."Heydər Əliyev xəzinəsi" adlanan mənəvi və milli sərvətdən də hamıya pay düşür.Bu paydan siyasətçilər də, dövlət xadimləri də, mədəniyyət və incəsənət adamları da gələcək onilliklər boyu faydalanacaqlar.

Heydər Əliyev xəzinəsindən ən böyük pay ədəbiyyat xadimlərinin, şairlərin, yazıçıların taleyinə düşüb. Onun ədəbiyyatda apardığı millilik siyasəti özündə xəlqilik, vətənpərvərlik, adət-ənənələrə dərin ehtiram, ana dilinin mövqeyinin genişləndirilməsi və sair kimi məsələləri əhatə etmişdir.

Dünya tarixində bütün dövrlərin təcrübəsində sənətə himayədarlığı ilə ad çıxaran, metsenat kimi tanınan dövlət başçıları və siyasi xadimlər çox olub. Lakin Heydər Əliyevi öz sələflərindən fərqləndirən bir mühüm cəhət var - o öz doğma xalqının ədəbiyyatına yalnız himayədarlıq etməmişdir, həm də bu mənəviyyat sahələrinin dərin bilicisi, dönməz təəssübkeşçisi, alovlu, yorulmaz təbliğatçısı kimi tanınmışdır.

Tarix uzaqlaşdıqca biz Heydər Əliyev dühasının əzəmətini, şəxsiyyətinin böyüklüyünü daha aydın dərk edirik. Bu misilsiz şəxsiyyətin xalqımız üçün etdiyi işlərin möhtəşəmliyini, tarixi dəyər və miqyaslarını əhatə etmək olduqca çətindir.

Ümummilli lider hakimiyyətə gəldiyi ilk vaxtlardan ədəbiyyata xüsusi diqqət yetirirdi. Həmin dövrdə Azərbaycan ədəbiyyatı klassiklərinin yubileylərinin ehtişamla qeyd olunması, demək olar ki, bütün klassik əsərlərin yenidən çap olunması, gənc yazıçılardan tutmuş qocaman sənət adamlarına böyük qayğı və diqqət yetirilməsi bunun bariz nümunəsidir. Təkcə belə bir faktı xatırlatmaq lazımdır ki, Heydər Əliyevin böyük nüfuzu və qətiyyəti sayəsində Azərbaycan ədəbiyyatının yeddi nümayəndəsinə SSRİ-nin ali təltifi sayılan Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. Bunlar XX əsr Azərbaycan klassiklərindən Süleyman Rəhimov, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm, Qara Qarayev, Tahir Salahov və Rəşid Behbudov idi.

Heydər Əliyev həmişə mümkünsüzü etməyə çalışırdı. Çünki o deyirdi ki,mümkün olanı onsuz da başqaları edir.

1982-ci ildə H.Cavidin cənazəsini uzaq Sibirdən gətirməsi və doğma Naxçıvan torpağında dəfn etdirməsi, bu gün Cavidlərin birgə uyuduğu möhtəşəm məqbərənin tikilməsi ulu öndər Heydər Əliyevin böyük qəhrəmanlığı, misilsiz rəşadəti, təkcə Cavidə deyil, ümumən Azərbaycan ədəbiyyatına, bədii-ictimai fikrinə tarixi ehtiramı idi. O, 1995-ci ildə Hüseyn Cavidin məqbərəsinin və ev muzeyinin yaradılmasına həsr edilmiş müşavirədə demişdir: "Bilirsiniz ki, Hüseyn Cavidin həyatı, yaradıcılığı Azərbaycan üçün nə qədər dəyərli, əhəmiyyətli olub, onun qoyduğu ədəbi-mənəvi irs bizim üçün nə qədər əhəmiyyətli və gərəklidir. Eyni zamanda, onun həyatı faciəli olubdur. Ancaq bu faciəli dövrlər onun yaradıcılığını Azərbaycan xalqının qəlbindən çıxara bilməyib, yaşadıbdır". [6,s.7]

Bu gün Naxçıvanda Cavid məqbərəsi xalqın müqəddəs ziyarətgahına çevrilib, xalqımız onu yaradanları dualar və təhsinlərlə yad edir. H.Cavid məqbərəsi həm də ulu Naxçıvanın memarlıq bəzəyi kimi tarixə daxil olub.

Heydər Əliyevin ədəbiyyatda apardığı millilik siyasəti özündə xəlqilik, vətənpərvərlik, adət-ənənələrə dərin ehtiram, ana dilinin mövqeyinin genişləndirilməsi və sair kimi məsələləri əhatə etmişdir. Bunlar keçmiş sovet ideologiyası ilə səsləşməyən, ədəbiyyat vasitəsilə xalqın milli-mənəvi dəyərlərinin dərinləşdirilməsinə və möhkəmləndirilməsinə xidmət edən mühüm addımlar idi. Bu istiqamətlərin hər biri üzrə ədəbiyyat sahəsində aparılan siyasət geniş mənada incəsənətin bütün sahələrini də əhatə etmiş, beləliklə, ümumdövlət siyasətinin əsaslarına çevrilmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə başlanan bu siyasi xətt müstəqillik dövründə də davam və inkişaf etdirilərək vahid bir dövlətçilik təlimi səviyyəsinə çatdırılmışdır.

Ölkəmiz müstəqillik qazandıqdan sonra Heydər Əliyevin ana dili uğrunda apardığı siyasətin miqyası daha da genişlənmiş, bir çox ümummilli məsələlərin dövlət siyasəti səviyyəsində həll edilməsi ilə başa çatdırılmışdır. Bu zaman da Heydər Əliyevin istinad etdiyi əsas qüvvə yazıçı, ədəbiyyat faktoru və şairlər, yaradıcı ziyalılar olmuşdur. Bu baxımdan böyük demokrat Cəlil Məmmədquluzadənin 1994-cü ildə keçirilmiş 125 illik yubileyində ana dili məsələlərinə göstərilən xüsusi diqqət həmin sahədəki digər böyük tədbirlərin başlanğıcına çevrilmişdir. Heydər Əliyev görkəmli yazıçı haqqındakı nitqində «Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyət,ədəbiyyatımızın klassiki» kimi çox yüksək qiymətləndirdiyi Cəlil Məmmədquluzadənin ana dili uğrunda mübarizəsini müasir dövr üçün də zəruri hesab etmişdir: «Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Onun daim işlətdiyi «Vətən, Vətən, Vətən! Millət, millət, millət! Dil, dil, dil!» sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə – Azərbaycan dilinə böyük diqqəti, ana dilini bilməyə səsləməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsi zəruriliyinə dair fikirləri, yazıları o vaxt üçün vacib idi, bu gün üçün də çox aktualdır. Ulu Öndər həmişə bu fikirdə olmuşdur ki: «Bədii söz insanların ağlına və ürəyinə daha tez yol tapır, daha dərindən nüfuz edir, onlara son dərəcə böyük təsir göstərir».[1,s.5] Həqiqətən, tarix boyu böyük ədəbiyyat həmişə dünyanın qüdrətli dövlət xadimlərinin, böyük siyasətçilərin və sərkərdələrin həyatında və fəaliyyətində mühüm yer tutmuş, böyük rol oynamışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri, rolu və imkanları çox geniş miqyası əhatə etmişdir. Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimlərindən biridir. Azərbaycan ədəbiyyatını və dünya ədəbiyyatı klassiklərini mütaliə etmək, dərindən bilmək və yadda saxlamaq baxımından Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevlə müqayisə ediləbiləcək dövlət başçısı göstərmək çətindir.[3,s.2]

Hələ gənclik illərindən etibarən qeyri-adi mütaliə qabiliyyəti ilə fərqlənən, hətta cavan yaşlarında tamaşalarda peşəkar teatr xadimləri ilə yanaşı, cəsarətlə səhnəyə çıxan Heydər Əliyevin dünyabaxışının formalaşmasında ədəbiyyat amili xüsusi yer tutmuşdur. Müasirləri onun Naxçıvanın teatr mühitində yaxından iştirak etdiyini, "Vaqif" pyesində, "Qaralar ölkəsində" adlı dram əsərində əsas rolları məharətlə ifa etdiyini xatırlayırlar.[2,s.125] Heydər Əliyevin teatr həvəskarı olmasına dair nadir fotoşəkillər görkəmli dövlət xadiminin Naxçıvan şəhərindəki muzeyində qorunub saxlanmaqdadır.

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 600 illik yubileyi hadisəsindən istifadə edərək Heydər Əliyev əvvəla, onun mənşə etibarilə azərbaycanlı olması fikrini möhkəmləndirmiş, ikincisi isə orta əsrlərdə azərbaycanlıların geniş ərazilərdə, müxtəlif Şərq ölkələrində yaşayıb-yaratdıqlarını gündəmə gətirmişdir. Sovet cəmiyyətində bu mövzuda açıq danışmağın böyük çətinliklərinin olduğu bir vaxtda Azərbaycan Sovet Respublikası rəhbərinin «mühacirətdə» yaşamış sənətkarın ölkədə yubileyini keçirməsi, Bakıda heykəlini ucaltması, adının rayona, metro stansiyasına, məktəbə verilməsi qəhrəmanlıq hadisəsi idi. Sonralar Heydər Əliyevin xatırlatmasından aydın olur ki, uzaqgörən rəhbər İmadəddin Nəsiminin 600 illik yubileyi hadisəsini daha çox

Azərbaycanı tanıtmağa və böyük söz ustasının Azərbaycan şairi olduğunu diqqət mərkəzinə çəkməyə istiqamətləndirmişdir.

Göründüyü kimi, Heydər Əliyevin ədəbiyyat təlimindəki millilik anlayışı özündə bütün dolğunluğu ilə Azərbaycançılıq məfkurəsini əks etdirir. Və yaxud da Azərbaycançılıq Heydər Əliyevin apardığı ümummilli siyasətin lokomotividir. Ədəbiyyat siyasəti görkəmli dövlət xadiminin bu istiqamətdə apardığı geniş siyasi-ideoloji və təşkilati işin özülünü təşkil edir. Azərbaycan ədəbiyyatı klassiklərindən Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Molla Pənah Vaqifin, Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, həmçinin yeni dövr bədii fikrimizin Cəfər Cabbarlı, Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Süleyman Rüstəm, kimi onlarla nümayəndələrinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, bu yaradıcı şəxsiyyətlər haqqında aparılan tədqiqat-təbliğat işləri bu sənətkarların mənsub olduğu xalqa daha yaxından tanıdılması ilə bir sırada, həm də Azərbaycançılıq ideyasının geniş miqyasda yayılmasına və dərindən mənimsədilməsinə uğurla xidmət etmişdir.

**Nəticə.** Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycançılıq ideyasının həyata keçirilməsində ədəbiyyat faktorundan istifadə etmək vəzifəsini həm ölkə daxilində, həm də Azərbaycandan kənarda böyük bacarıqla həyata keçirmişdir. Böyük ədəbiyyat Heydər Əliyevin Azərbaycanı dünyada tanıtdırması baxımından mühüm vasitələrdən birinə çevrilmişdir. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi qüdrətli sənətkarların yubileylərinin, «Kitabi-Dədə Qorqud» dastanının yaranmasının 1300 illiyinin beynəlxalq miqyasda keçirilməsi görkəmli dövlət xadiminin Azərbaycan xalqını və ölkəsini dünya səviyyəsində tanıtmasına, dövlətimizə və xalqımıza etibarlı tərəfdaşlar qazandırmasına doğru istiqamətləndirilmiş və müsbət nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Bundan başqa, müxtəlif bəhanələrlə Azərbaycan xalqına mənsub olmasına şübhə ilə yanaşılan, ətrafında yersiz və haqsız mübahisələr açılan ədəbiyyat xadimlərinin yubileylərinin keçirilməsi, həm də həmin yanlış mülahizələrin, məqamların, iddiaların aradan qaldırılmasına, Azərbaycan gerçəkliyinin daha dərindən əsaslandırılıb təsdiq olunmasına hesablanmışdır. Nizami Gəncəvinin 840 illik, Məhəmməd Füzulinin 500 illik, «Kitabi-Dədə Qorqud» dastanlarının beynəlxalq miqyasda böyük təntənə ilə keçirilən 1300 illik yubileyləri prosesində aparılan məqsədyönlü elmi-ideoloji işin sayəsində ortaq cəhətləri ilə yanaşı, bu sənətkarların və ədəbi abidələrin Azərbaycan xalqına məxsusluğu nəinki möhkəm surətdə əsaslandırılmış, hətta bütün dünyaya bəyan edilmişdir. Biz fəxr edirik ki, Dədə Qorqud bizim əcdadımızdır. Biz fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» kimi abidəmiz vardır".[5,s.34]

Heydər Əliyev müasiri olduğu yazıçılara da xüsusi qayğı ilə yanaşmış, onları yüksək dövlət mükafatları ilə mükafatlandırmış, təntənəli surətdə yubileylərini keçirmişdir. Bu sıradan xalq yazıçıları İlyas Əfəndiyevin, İsmayıl Şıxlının, Anarın, Hüseyn Abbaszadənin, Yusif Səmədoğlunun, Maqsud İbrahimbəyovun, Hüseyn İbrahimovun, xalq şairləri Məmməd Arazın, Nəbi Xəzrinin, Bəxtiyar Vahabzadənin, Mirvarid Dilbazinin, Qabilin, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun adına keçirilən mərasimlər unudulmazdır.

Bugün Ulu öndər Heydər Əliyevin ədəbiyyata, mədəniyyətə göstərdiyi böyük qayğının onun ləyaqətli davamçısı Azərbycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsi Azərbaycan ədəbiyyatının yeni intibahı üçün geniş imkanlar açmışdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Heydər Əliyevin ədəbiyyat haqqında kəlamları (tərtib edəni V.Məmmədov). Naxçıvan, 2013, s.22
2. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, s.243
3. Heydər Əliyev. Yazıçılarımız öz sələflərinin işini davam etdirməlidirlər (Azərbaycan Yazıçılarının V Qurultayında nitq). "Ədəbiyyat və incəsənət" qəzeti, 5 iyun 1971-ci il
4. "Ədəbiyyat və incəsənət" qəzeti, 9 iyun 1972-ci il
5. İ.Həbibbəyli. Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, "Əcəmi", 2013, s.34 2 Nazim İbrahimov. Azərbaycan Yazıçılar Birliyi–75. Bakı, "Litterpress", 2009, s.107 22
6. "Xalq" qəzeti,10 mart 2013-cü il